E-1514

Azərbaycan Respublikası
Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsi
Apellyasiya şurasının
Qərarı

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə
Dövlət Komitəsinin
Apellyasiya şurası

Z.T.Hacıyevin sədrliyi ilə,
Üzvlər N.F.Nəsibova, R.N.Hüseynəliyev

etiraz verən "Bahlsen GmbH & Co. KG" /ünvan: Podbielskistrasse 11, 30163 Hannover (DE) nümayəndəsi patent müvəkkili R.K.Orucovun iştirakı ilə,

Z.T.Hacıyevin məruzəsilə etiraz üzrə işə baxaraq müəyyən etdi:

18.10.2017 il tarixdə "Bahlsen GmbH & Co. KG" şirkətinə məxsus "ZOO" əmtəə nişanının beynəlxalq qeydiyyatının 29 və 30-cu sinifin əmtəələri üzrə qeydiyyatından imtina edilməsi barədə ekspertizanın 04.11.2016-cı il tarixli rədd qərarına qarşı iddiaçının patent müvəkkili R.K.Orucov tərəfindən "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Azərbaycan Respublikası Qanununun 15-ci maddəsində nəzərdə tutulmuş əsaslara görə Apellyasiya şurasına etiraz ərizəsi daxil olmuşdur.

Etiraz ərizəsində qeyd edilmişdir ki, "Bahlsen GmbH & Co şirkəti. KG", DE (bundan sonra – Bahlsen GmbH) "ZOO" IR 372243 beynəlxalq əmtəə nişanının sahibidir (ilkinlik tarixi 03.09.1970, siniflər 29 və 30). 2015-ci ildə bu nişanın qeydiyyatının təsir dairəsinə Azərbaycanı daxil edilmişdir. ÜİMT-dən İddiaçıya 30-cu sinif üzrə Azərbaycanda qeydiyyatdan müvəqqəti imtina haqqında bildiriş göndərilmişdir. Ekspertiza öz qərarında 30-cu sinifdə qeydiyyata alınmış Publichne aktsionerne tovarystvo "Kharkivska biskvitna fabryka" (bundan sonra – PAT "KBF") məxsus "ЗООЛЕНД ZOOLAND" IR: 1070700 əmtəə nişanına istinad etmişdir. "ZOO" və "ЗООЛЕНД ZOOLAND" söz işarələri arasında kifayət qədər böyük vizual və fonetik fərqlər vardır. Bu amil istehlakçıya imkan verir ki, bu əmtəə nişanlarını bir-birindən asanlıqla fərqləndirsin və yanılmasın. "Bahlsen GmbH" şirkəti 1967-ci ildə Almaniyada "ZOO" əmtəə nişanı altında məhsul istehsalına başlamış və "ZOO" nişanının baza qeydiyyatı məhz burada həyata keçirilmişdir (830 238 N-li qeydiyyat, qeydiyyatın tarixi – 27.02.1967). İstehsalın və satış bazarlarının genişlənilməsi prosesində

milli qeydiyyat əsasında, 1970-ci ildə nişanın 372243 N-li beynəlxalq qeydiyyatı həyata keçirilmişdir. Bu qeydiyyat bütün keçmiş dövr boyunca dəstəklənmiş və hal-hazırda onun təsirinin müddəti 03.09.2020-yə qədər uzadılmışdır. Bu vaxt ərzində Bahlsen GmbH məhsulları, o cümlədən "ZOO" əmtəə nişanı altında buraxılan məhsul MDB olkələrində geniş yayılmış, və bununla əlaqədar olaraq nişan sahibi 2015-ci ildən etibarən "ZOO" əmtəə nişanı altında məhsulun göndərildiyi ölkələr siyahısında Azərbaycanı da göstərmişdir. Ancaq 2017-ci ilin yanvar-aprel aylarında keçirilmiş yoxlama nəticəsində əks göstərilən "ЗООЛЕНД ZOOLAND" əmtəə nişanı altında olan məhsula Bakı şəhərinin müxtəlif mağazalarında rast gəlinməmişdir. Həmçinin Azərbaycanda ixtisaslaşdırılmış,o cümlədən qida məhsulları istehsalçıları üçün sərgilər keçirən Iteca Caspian şirkətinə sorğu göndərilmişdir. Sorğunun məqsədi son beş il ərzində Azərbaycanda keçirilmiş sərgilərdə PAT "KBF" şirkətinin iştirak edib-etməməsi və "ЗООЛЕНД ZOOLAND" adlı məhsulun sərgilərdə reklam edilib-edilməməsi faktlarıının araşdırılması idi. Nəticədə alınan cavabda deyilir ki, PAT "KBF" şirkəti Azərbaycanda keçirilən sərgilərdə iştirak etməmişdir. PAT "KBF" şirkəti 1070700 "ЗООЛЕНД ZOOLAND" əmtə nişanına dair beynəlxalq ərizənin verilməsi vaxtı Almaniyanı göstərmişdir. Almaniyada artıq 40 il qüvvədə olan "ZOO" əmtəə nişanının qeydiyyatı olduğuna baxmayaraq, burada "ЗООЛЕНД ZOOLAND" əmtəə nişanının qeydiyyata alınması qanuni sayılmışdır. Yuxarıda qeyd olunanları diqqətə alaraq, və iddia olunan nişanın AR "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" Qanununun 4-cü maddəsinə uyğun olduğunu nəzərə alaraq, ekspertizanın qərarını ləğv etməyi və "ZOO" beynəlxalq əmtəəə nişanına, 30-cu sinif əmtəələri üzrə Azərbaycanda hüquqi mühafizə verilməsi barədə qərar qəbul edilməsi Apellyasiya şurasından xahiş edilmişdir.

Apellyasiya şurasının iclası zamanı iddiaçının nümayəndəsi, patent müvəkkili R.K.Orucov "ЗООЛЕНД ZOOLAND" əmtəə nişanınn sahibi Publichne aktsionerne tovarystvo "Kharkivska biskvitna fabryka" və “Bahlsen GmbH” arasında bağlanmış 07 mart 2018-ci il tarixli razılıq məktubunu təqdim etmişdir.

Apellyasiya şurası etiraz ərizəsinə baxaraq, etiraz üzrə məruzəni, etiraz edən patent müvəkkili R.K.Orucovun çıxışını dinləyib hesab edir ki, etiraz təmin olunmalıdır.

Apellyasiya şurası işi araşdıraraq müəyyən etmişdir ki, "ZOO" adlı əmtəə nişanı (372243 beynəlxalq qeydiyyat) 03.09.1970-cı il tarixdə 29 və 30-cu sinifin əmtəələri üzrə “Bahlsen GmbH” adına qeydiyyata alınmış və həmin qeydiyyat 10.12.2015 (2015/48 Gaz) tarixində Azərbaycan Respublikasının ərazisinə şamil edilmişdir.

Ekspertiza rədd qərarında "ZOO" əmtəə nişanının (372243) qeydiyyata alınmasından imtina edilməsi üçün əsas kimi Azərbaycan Respublikası ərazisində daha əvvəl Publichne aktsionerne tovarystvo "Kharkivska biskvitna fabryka" */ünvanı* - vul.Lozivska 8, Kharkiv 61017/ adına qeydiyyata alınmış 1070700 saylı "ЗООЛЕНД ZOOLAND" əmtəə nişanına oxşar olması göstərilmişdir.

İddiaçı “Bahlsen GmbH” “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinə əsaslanaraq 07 mart 2018 il tarixində imzalanmış Razılıq məktubunu Apellyasiya şurasına təqdim etmişdir. Həmin Razılıq məktubuna görə Publichne aktsionerne tovarystvo "Kharkivska biskvitna fabryka" “Bahlsen GmbH”-ə onun “ZOO” (372243) əmtəə nişanının Azərbaycan Respublikası ərazisində 30-cu sinif əmtəələri ilə istifadəsinə və qeydiyyata alınmasına razılıq verir.

Şərh edilənlərə əsasən, “Əmtəə nişanları və coğrafi göstəricilər haqqında” Azərbaycan Respublikası Qanununun 15-ci maddəsinin 1-ci, 3-cü hissələrini rəhbər tutaraq və Razılıq məktubu nəzərə alaraq Apellyasiya şurası

Qərara aldı:

1. “ZOO” adlı əmtəə nişanının 372243 saylı beynəlxalq qeydiyyatının 30-cu sinifin əmtəələri üzrə qeydiyyatından imtina edilməsi barədə ekspertizanın 04.11.2016-cı il tarixli

rədd qərarına qarşı iddiaçının patent müvəkkili R.K.Orucov tərəfindən Apellyasiya şurasına verilmiş ərizə əsaslı hesab olunsun və təmin olunsun.

2. “ZOO” adlı əmtəə nişanının Azərbaycan Respublikasında 30-cu sinif əmtəələri üzrə 372243 saylı beynəlxalq qeydiyyata alınmasının rədd edilməsi barədə ekspertizanın 04.11.2016-cı il tarixli rədd qərarı ləğv edilmiş sayılsın.

3. “ZOO” adlı əmtəə nişanının 30-cu sinif əmtəələri üzrə 372243 saylı beynəlxalq qeydiyyatı Azərbaycan Respublikası ərazisində qüvvədə saxlanılsın.

4. Qeyd olunanlara əsasən Beynəlxalq büroya müəyyən edilmiş qaydada məlumat göndərilsin.

Apellyasiya şurasının sədri Z.T.Hacıyev

Üzvləri: N.F.Nəsibova

R.N.Hüseynəliyev